# İDARƏETMƏ SİSTEMLƏRİ İNSTİTUTUNUN

# Elmi və elmi-təşkilati fəaliyyəti haqqında

## 2025-ci il üzrə

## H E S A B A T I

# Elmi-tədqiqat işləri

| 3 | 7 | 17 | 34 | 26 |
|---|---|---|---|---|
| istiqamət | problem | mövzu | iş | mərhələ |

**2025-ci ildə 17 mövzu üzrə 34 iş və 26 mərhələ yerinə yetirilib.**

# İnstitutun elmi istiqamətləri

1. İdarəetmənin nəzəri və tətbiqi problemləri

2. Süni intellekt texnologiyaları

3. Sosial-iqtisadi sistemlərin tədqiqi

# Elmi-tədqiqat işləri üzrə alınmış mühüm elmi nəticələr

İnstitutda yerinə yetirilmiş elmi-tədqiqat işləri üzrə **29** mühüm elmi nəticə alınmışdır, onlardan **11 nəticə** Elmi Şura tərəfindən təsdiq edilmişdir.

**İSTİQAMƏT: Süni intellekt texnologiyaları**

***PROBLEM: Süni intellekt üsullarının tanıma, diaqnostika, proqnozlaşdırma və qərar qəbuletmə məsələlərinin öyrənilməsində tətbiqi***

**1.** Videogörüntüdən seçilmiş obyektin izlənməsini təmin edən alqoritm işlənmişdir. Tədqiqat işində videokameradan alınan ekran təsvirində seçilmiş obyektin avtomatik izlənmə alqoritmi təqdim olunmuşdur. Obyekt dedikdə, mərkəzi təsvirin seçilmiş nöqtəsində olan və müəyyən düzbucaqlı ilə məhdudlaşan hissə başa düşülür. Təklif olunan alqoritm izlənilən obyekt haqqında apriori məlumatların olmasını tələb etmir, obyektin təsvirdə lokallaşdıran düzbucaqlı üzrə hesablanan histoqramın yeni kadrlar üçün hesablanan histoqramlara yaxınlıq dərəcəsinin qiymətləndirilməsinə əsaslanır. Histoqramların yaxınlıq dərəcəsini qiymətləndirmək üçün Hausdorff metrikası tətbiq olunmuşdur. Kompüter eksperimentləri göstərir ki, bir sıra hallarda izlənilən obyektin hərəkət etdiyi və təsvirində arxa fon kimi çıxış edən mühit bircins olmadıqda təklif olunan alqoritm daha yaxşı nəticə verir.

**İcraçılar: t.e.d., prof., akademik Əli Abbasov, t.e.d., dos. Elxan Səbziyev, r.ü.f.d., dos. Ədalət Paşayev, Sadiq Məlikov.**

# Elmi-tədqiqat işləri üzrə alınmış mühüm elmi nəticələr

**2. Smart Bot Assistant.** Gələn zəngləri avtomatik tanıyıb, səs və mətn analizi vasitəsilə cavablandıran ağıllı bot sistemidir. Müştəri suallarını anlama, yönləndirmə və cavablandırma funksiyaları ilə çağrı mərkəzlərində insan yükünü azaldır. Sistemdə təbii dil emalı (NLP) və səs tanıma texnologiyaları inteqrasiya olunub. Sistemin funksionallığı aşağıdakıları əhatə edir:

**Realtime Text to Speech (TTS).** Verilən mətni yüksək keyfiyyətli səsə çevirərək real vaxtda səsləndirən modul. Canlı yayım, çağrı mərkəzi və xəbər sistemlərində istifadəyə uyğundur. Fərqli səslərlə çıxış verə bilir.

**Voice Cloning ilə Text to Speech**. İstənilən şəxsin referans səsinə əsaslanaraq, həmin səsdə istənilən mətni səsləndirən sistemdir.

**Text Translation App**. Çoxdilli mətni real vaxtda və internet bağlantısı olmadan tərcümə edə bilən tətbiqdir. Azərbaycan dili də daxil olmaqla əsas dünya dillərini dəstəkləyir. Mobil və masaüstü platformalarda çevik işləmə üçün optimallaşdırılıb.

**Offline LLM (Azərbaycan dili dəstəyi ilə)**. Lokal mühitdə internet olmadan işləyən süni intellekt modelidir. Azərbaycan dilində mətn anlama, yazı generasiyası və məlumat sorğularına cavab vermə kimi tapşırıqları yerinə yetirir. Məlumat məxfiliyini qoruyaraq müəssisədaxili istifadəyə uyğundur.

**ASR – Səs Tanıma Modulu**. Azərbaycan dilində danışığı avtomatik olaraq mətnə çevirən səs tanıma sistemidir. Zənglər, səs yazıları və video transkripsiyaları üçün yüksək dəqiqlik təmin edir. Dialektlər və müxtəlif aksentlərə uyğunlaşdırıla bilir.

**RAG – Retrieval-Augmented Generation**. Verilmiş sənədlər və məlumat bazasında ən uyğun bilgiləri taparaq cavabları zənginləşdirən süni intellekt moduludur. Chatbotlar, axtarış sistemləri və daxili məlumat bazaları üçün effektiv nəticə verir. Cavablar həm də izahlı və mənbəyə əsaslı təqdim olunur.

**AI Agentlər Modulu**. Platformadakı müxtəlif servisləri bir-biri ilə əlaqələndirərək avtomatik qərarlar verən ağıllı agentlər sistemidir. İstifadəçi sorğuları əsasında verilmiş funksiyaları çağıra, alətləri istifadə edə və verilənlər bazasında axtarış edə və ora məlumat yaza bilir.

**İcraçılar: t.e.d., prof., akademik Əli Abbasov, t.ü.f.d., dos. Əbülfət Fətullayev**

# Elmi-tədqiqat işləri üzrə alınmış mühüm elmi nəticələr

**3.** Əkin sahələrinin uzaqdan monitorinqini həyata keçirən multikopter sensorlarından alınan multispektral verilənlər və süni intellekt texnologiyalarından istifadə etməklə vahid IoT platforması əsasında məhsulun məhsuldarlığının proqnozlaşdırılması mexanizmi işlənilmişdir. Eksperimental sınaqlar sistemin əkin sahələrində baş verən dinamiki dəyişikliklərin real vaxt rejimində dəqiq müəyyənləşdirilməsi, izlənilməsi və baş vermiş dəyişikliklərə operativ reaksiyanın verilməsi qabiliyyətinə malik olduğunu göstərmişdir.
**İcraçılar: t.e.d., prof. Elçin Əliyev, Əbülfət Rəhmanov**

**4.** Şəhərdə bir evin və ya daşınmaz əmlak obyektinin yerləşdiyi mövqeyinin qiymətləndirilməsi çox meyarlı qərar vermə problemi kimi nəzərdən keçirilir. Bu mövqedən ictimai nəqliyyat vasitəsi ilə şəhərin digər nöqtələrinə gediş-gəlişin asanlığı, həmçinin metro stansiyaları, xəstəxanalar, ticarət mərkəzləri, yaşıl park əraziləri və s. kimi mühüm məntəqələrə gedə bilmə asanlığı diqqətə alınır. Bu çərçivədə ictimai nəqliyyat şəbəkə (PTN) məsafəsi konsepsiyası təqdim edilir və Mövqe Qiymətləndirmə İndeksi (LVI) adlı indeks təklif edilir. Yaşayış yerinin yerləşdiyi yerə görə bazar dəyərinin qiymətləndirilməsində bu indeksin əhəmiyyəti vurğulanır.
**İcraçı: r.e.d., prof. Əfəndi Nəsibov**

**5.** Obrazların (şəkillər, əlyazma mətnlər) tanınması üçün intellektual kompüter sistemi çərçivəsində tanınan obrazlar barədə mövcud məlumatların informasiya məzmununu artırmaq üçün yanaşmalar işlənib hazırlanmışdır. İnformasiyanın emalı üçün təklif olunan yanaşmalar approksimasiya, ekstrapolyasiya və morfoloji analiz üsullarının istifadəsinə əsaslanır. Aşağı ayırdetmə ilə skan edilmiş əlyazma mətnlərin tanınması üzrə kompüter eksperimentləri aparılmışdır.
Təklif olunan üsullardan istifadə edərək, tanıma dəqiqliyi 70%-dən 90%-ə yüksəlmişdir. Alqoritmlərdən Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən kütləvi imtahanların nəticələrinin emalında istifadə olunub.
**İcraçılar: t.ü.f.d. Rüstəm Əzimov, t.ü.f.d., dos. Elşən Mustafayev, Sona Rzayeva.**

# Elmi-tədqiqat işləri üzrə alınmış mühüm elmi nəticələr

*İSTİQAMƏT: İdarəetmənin nəzəri və tətbiqi problemləri*

**PROBLEM: Proseslərin riyazi modelləşdirilməsi və optimal idarə edilməsi**

6. Xətti dinamik sistem üçün əmsal-tərs məsələ həll edilir. Məsələnin spesifikliyi, birincisi, həm əsas, həm də əlavə təyin olunan şərtlərin qeyri-lokallığından, ikincisi, onlarda obyektin vəziyyətinin törəmələri haqqında informasiyanın mövcud olmasından ibarətdir. Məsələnin həllinin varlığı və yeganəliyi üçün zəruri və kafi şərtlər alınmışdır. Ədədi həll üçün iki yanaşma təklif olunmuş, göstərilmişdir ki, onların müqayisəli effektivliyi qeyri-lokal şərtlərdə iştirak edən aralıq vəziyyətlərin sayı ilə bu şərtlərdə onların törəmələrinin tərtibinin nisbətindən asılıdır. Həmçinin karbohidrogen xammalının boru kəmərləri ilə nəqli sistemlərində həm hidravlik müqavimət əmsallarının, həm də sızma yerlərinin təyini məsələlərinin həllinə ümumi yanaşma təklif olunmuş, göstərilmişdir ki, tədqiq olunan məsələlər həm xüsusi, həm də adi diferensial tənliklər üçün tərs parametrik məsələlərə gətirilir. Uygun proqram təminatı hazırlanmış, kompüter eksperimentləri aparılmışdır.

**İcraçılar: r.e.d., prof., müxbir üzv Kamil Ayda-zadə, r.e.d., prof. Vaqif Abdullayev,**
**r.e.d., dos. Yeganə Əşrəfova, r.e.d., dos. Anar Rəhimov**

**7.** Toplanmış və paylanmış parametrli obyektlərə nəzərən əks əlaqəli optimal idarəetmə məsələsinin həllinə yanaşma işlənmişdir. Bu yanaşma idarəetmələrin qiymətlərinin formalaşması üçün obyektin həm cari, həm də əvvəlki zamanlardakı vəziyyətləri haqqında informasiyadan istifadəyə əsaslanır.
Optimal idarəetmənin sintezi məsələlərini həll etmək üçün optimallaşdırmanın sonlu ölçülü ədədi üsullarından istifadə etməyə imkan verən optimallıq üçün zəruri şərtlər alınmışdır. Proqram təminatı hazırlanmış, test məsələlər üzərində ədədi eksperimentlər aparılmışdır.
Toplanmış parametrli sistemlər üçün yaddaşa malik zonal idarəedici təsirlər sinfində idarəetmənin sintezinə yanaşma təklif olunur. Zonal idarəedici təsirlərin parametrlərinin optimallığı üçün zəruri şərtlər alınmışdır. Zonal idarəetmələrin sintezi məsələsinin həlli üçün alqoritmlər və proqram təminatı işlənmişdir. Test məsələlər üzərində kompüter eksperimentləri aparılmışdır.
**İcraçılar: r.e.d., prof. Vaqif Abdullayev, r.e.d. dos. Samir Quliyev, r.ü.f.d., dos. Vüqar Həşimov.**

**8.** Başlanğıc şərtin vasitəsilə idarə olunan və Volterra tip ikiölçülü qeyri-xətti fərq tənliklər sistemi ilə təsvir olunan optimal idarəetmə məsələsində optimallıq üçün Eyler tənliyinin analoqu alınmış və optimallıq üçün konstruktiv yoxlanıla bilən ikinci tərtib ümumi zəruri şərt isbat edilmişdir
Gecikməyə malik adi diferensial tənliklər sistemi ilə təsvir olunan çoxnöqtəli keyfiyyət meyarlı bərabərlik və bərabərsizlik tipli çoxnöqtəli funksional məhdudiyyətli optimal idarəetmə məsələsi öyrənilmişdir. Optimallıq üçün yeni və çox ümumi xarakter daşıyan ikinci tərtib zəruri şərt isbat edilmişdir. Bu zəruri şərtdən xüsusi halda klassik mənada məxsusi idarələrin optimallıq şərtləri alınmışdır.
Təsadüfi küylərin təsiri altında müxtəlif kimyəvi-texnoloji proseslərin modelləşdirilməsi zamanı yaranan, birinci tərtib stoxastik hiperbolik tənliklər sistemi ilə təsvir olunan optimal idarəetmə məsələsinə baxılmışdır. Müxtəlif şərtlər daxilində maksimum prinsipi mənada məxsusi idarələrin optimallığı üçün zəruri şərtlər, həmçinin optimallıq üçün birinci və ikinci tərtib zəruri şərtlər tapılmışdır.
**İcraçılar: r.e.d., prof. Kamil Mənsimov, r.ü.f.d., dos. Rəşad Məstəliyev**

## PROBLEM: Kompleks tədbirlərinin idarə olunmasının nəzəri və metodoloji əsaslarının, model və metodlarının işlənilməsi

**9.** A.H.Hacıyev, Jiuping Xu "High-dimensional regression analysis and Artificial Intelligence: Theory, Methods and Applications", Springer, 2025, 440 səhifəli kitabda iri miqyaslı modellərin şərh oluna bilməsinin sabitliyini və etibarlılığını qiymətləndirmək problemlərini həll etmək üçün yeni yüksək ölçülü xətti və qeyri-xətti reqressiya modeli təqdim olunur. Kitabda reqressiya təhlilində əsas konsepsiyalar nəzərdən keçirilməklə və süni intellekt şərhinin mövcud vəziyyətini və problemlərini müzakirə etməklə, reqressiya modellərinin dərin tədqiqi vasitəsilə verilənlərə əsaslanan xətti reqressiyanın əsas prinsipləri izah edilir. Reqressiya modellərinin izahedici gücünü artırmaq üçün dəyişən parametrli reqressiya modelləri əlavə olaraq araşdırılır və dəyişən parametrli qeyri-xətti reqressiya modellərinə genişləndirilir. Mürəkkəb əlaqələri idarə etmək üçün yüksək ölçülü qeyri-xətti reqressiyanın sabitliyini təmin edən Gauss-Nyuton iterativ metodu daxil edilmişdir. Etibarlılıq Aralığına əsaslanan Etibarlılığın Qiymətləndirilməsi çərçivəsi mühəndislik, maliyyə və zaman seriyalarının proqnozlaşdırılması sahəsində nümunə araşdırmaları vasitəsilə təsdiqlənmiş izahatların sabitliyini və etibarlılığını qiymətləndirmək üçün interval eni, mərkəzdən kənarlaşma və dəqiqlik kimi statistik göstəriciləri vahid halda birləşdirir. Bütövlükdə, kitab daha etibarlı süni intellekt sistemlərini inkişaf etdirərək, şərh edilə bilənliyi və statistik hesabatlılığı artırmaq üçün reqressiya modelləşdirməsini, güvən bölgəsinin qurulmasını və etibarlılığın qiymətləndirilməsini birləşdirən şərh edilə bilən əlaqəli çərçivə təqdim edir.
**İcraçı: r.e.d., prof., akademik Asəf Hacıyev**

**10.** Etibarlılıq nəzəriyyəsindən istifadə edilməklə torpaqların aqrokimyəvi parametrlərə görə münbitliyinin qiymətləndirilməsi metodikası təklif edilmişdir.
**İcraçı: t.e.d., dos. Yasin Rüstəmov**

# Elmi-tədqiqat işləri üzrə alınmış mühüm elmi nəticələr

**İSTİQAMƏT: Sosial-iqtisadi sistemlərin tədqiqi**

***PROBLEM: Sosial-iqtisadi sistemlərin dayanıqlı inkişafının modelləşdirilməsi***

**11.** Son illərdə Azərbaycan iqtisadiyyatı COVID-19 pandemiyası, Rusiya-Ukrayna müharibəsi və qlobal iqlim dəyişiklikləri kimi qlobal problemlər nəticəsində əhəmiyyətli qeyri-müəyyənliklərlə üzləşmişdir. Bu hadisələr əsas iqtisadi göstəricilərə öz mənfi təsirini göstərmişdir. Bu tədqiqatda 2015-2022-ci illər ərzində Azərbaycan İqtisadi Qeyri-Müəyyənlik İndeksinin EUI (EUI-nin sub-indeksləri) qiymətləndirilməsi üçün qeyri-səlis dinamik obrazların tanıması modeli tətbiq olunmuşdur. Tətbiq edilən metodun yeniliyi, ümumi EUI-nin hesablanmasında zaman çəkilərinin daxil edilməsidir. Bu yanaşma müxtəlif amillərin zamanla EUI-yə təsirini daha dinamik və dəqiq ölçməyə imkan verir. Təhlil iqtisadi artımın dəyişkənliyi, birbaşa xarici investisiyaların səviyyəsinin dəyişməsi, inflyasiya və turizm gəlirlərindəki dalğalanmaların təsirlərini nəzərə alır. Araşdırmada həmçinin COVID-19 pandemiyasının, Rusiya-Ukrayna müharibəsinin və iqlim dəyişikliklərinin təsirlərinin EUI (EUI-nin sub-indeksləri) dinamikasına təsirləri qiymətləndirilmişdir. Hazırlanmış alqoritm digər ölkələrin sosial-iqtisadi indekslərinin qiymətləndirilməsində də tətbiq oluna bilər.

**İcraçılar: i.e.d., prof., müxbir üzv Qorxmaz İmanov, i.ü.f.d. Asif Əliyev, Tural Süleymanlı.**

# Elmi nəticələrin tətbiq sxemi

## “Dövlət-Özəl-Akademik” Əməkdaşlığı



# Tətbiqi layihələr

**2025-ci ildə** alınan elmi nəticələr əsasında plan üzrə **3**, plandan əlavə **1** elmi-tədqiqat işi tətbiq edilmişdir:

**1. "Hökumət Ödəniş Portalının (HÖP) funksionallığının təkmilləşdirilməsi"**
Hökumət Ödəniş Portalının (HÖP) funksionallığının təkmilləşdirilməsi məqsədi ilə proqram təminatı yaradılmış, Azərbaycan Respublikasının Mərkəzi Bankında tətbiq edilmişdir. *(İslam Əhmədov)*

**2. Büdcə Məlumat İdarəetmə Sisteminin (BMİS) tətbiqinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə sistemin yeni funksional modullarının hazırlanması və tətbiqi**
Büdcə Məlumat İdarəetmə Sisteminin (BMİS) tətbiqinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə sistemin yeni funksional modulları hazırlanmış və Azərbaycan Respublikasının Maliyyə Nazirliyində tətbiq edilmişdir. *(Əbülfət Rəhmanov)*

**3. Kənd təsərrüfatında sudan istifadənin optimallaşdırılması üçün NB-IoT həllinin hazırlanması və pilot saytlarda tətbiqi**
"Kənd təsərrüfatında sudan istifadənin optimallaşdırılması üçün NB-IoT həllinin hazırlanması və pilot saytlarda tətbiqi" adlı layihə işlənilmiş və Azərbaycan Respublikasının Hacıqabul və Tovuz rayonlarında tətbiq edilmişdir. (t.ü.f.d. Xanmurad Abdullayev)

**4. Dövlət İmtahan Mərkəzində "Formaların tanıma sistemi" tətbiqi proqramlar paketinin (TPP) təkmilləşdirilməsi**
"Formaların tanıma sistemi" tətbiqi proqramlar paketi (TPP) təkmilləşdirilərək Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ümumi orta təhsil üzrə 9-cu və 11-ci sinif buraxılışın yekun qiymətləndirmə imtahanlarında tətbiq edilmişdir.
(t.ü.f.d., dos. Elşən Mustafayev, Sona Rzayeva, t.ü.f.d. Rüstəm Əzimov, DİM tərəfindən: İ.Allahverdiyev, İ.Mahmudov)

# Qrantlar

## 2025-ci ildə qrant müsabiqəsinə təqdim edilmişdir:

***Dövlət Neft Şirkətinin Elm Fonduna – 3 (üç) layihə:***

1. Ştanqlı nasosla istismar olunan quyularda nasosun optimal iş rejiminin təyini üçün proqram təminatının (kompüter simulyatorunun) yaradılması”. **Rəhbər: t.e.d., dos. Qəmbər Quluyev.**

2. Az debitli quyulardan neft hasilatında neft/su nisbətinin yüksəldilməsi üçün texnologiyaların və idarəetmə sisteminin işlənilməsi. **Rəhbər: t.e.d., dos**. **Asif Rzayev.**

3. Neftçıxarmada rəqəmsal xidmət infrastrukturunun qiymətləndirilməsi modellərinin və alqoritmlərinin işlənilməsi. **Rəhbər: t.e.d., dos. Fəhrad Paşayev.**

**AR Elm Fondunun** 4-cü Azərbaycan-Türkiyə (“AzTürk-4”) birgə beynəlxalq qrant müsabiqəsinə Dokuz Eylül Universiteti, İzmir Katip Çelebi Universiteti və Kent Kart Ege Elektronik San. Tic. A.Ş. mərkəzi ilə birgə “Süni intellektlə işləyən karbon izi izləmə və təşviq sisteminin hazırlanması (Yaşıl Sərnişin)” ("Development of an AI-Powered Carbon Footprint Tracking and Incentive System (Green Passenger)" adlı layihə.
**Rəhbər: AMEA-nın müxbir üzvü Kamil Ayda-zadə.**

# Qrantlar

## 2025-ci ildə qalib olan layihələr:

**Azərbaycan Respublikası Elm Fondunun**

1. **“Ekoloji tarazlığın koqnitiv modelləşdirmənin tətbiqi ilə idarə olunması”.**
**Rəhbər – t.e.d., dos. Elxan Səbziyev**
*Müddəti* – 01 oktyabr 2025 - 01 oktyabr 2027
*Məbləği* – 150.000 azn

2. İdarəetmə Sistemləri İnstitutunun Təcrübi İstehsalatlı “Kibernetika” Xüsusi Konstruktor Bürosu **Azərbaycan Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin “Regional Su Meliorasiya Xidməti”** publik hüquqi şəxsi tərəfindən *elan olunmuş “Bərdə rayonu ərazisində subartezian quyuları üçün nəzarət və idarəetmə sisteminin işlənilməsi və qurulması”* üzrə keçirilmiş **tenderin qalibi** olmuşdur.

# Qrantlar

## 2025-ci ildə 3 layihə **başa çatdırılmışdır**.

1. Azərbaycan Respublikası Elm Fondunun "Əsas Qrant Müsabiqəsi - 2023" "Oktokopter vasitəsilə ağır yüklərin (100 kq-a qədər) çatdırılması və xilasetmə işlərinin aparılması üçün proqram-texniki kompleksin işlənməsi"
**Rəhbər – t.e.d., prof. Ramin Rzayev**
*Müddəti* – 01 dekabr 2023 – 30 noyabr 2025
*Məbləği* – 250.000 AZN

2. Avropa Birliyinin **"ERASMUS+" (Action KA171)** akademik mobillik qrant proqramı çərçivəsində Fessaliya Universiteti (Afina, Yunanıstan) ilə "Ali təhsil tələbələri və işçi heyəti üçün mobillik" adlı layihə (01.04.2022—01.04.2025)
Akademik koordinatorlar:
Yunanıstan tərəfdən professor Efimos Providas, Azərbaycan tərəfdən professor **Kamil Ayda-zadə**.

3. Avropa Birliyinin **"ERASMUS+" (Action KA131)** akademik mobillik qrant proqramı çərçivəsində Ruse Angel Kanchev Universiteti (Bolqariya) ilə "Ali təhsil tələbələri və işçi heyəti üçün mobillik" adlı layihə (01.02.2024-01.02.2025)
Akademik koordinator:
"Beynəlxalq əlaqələr və innovasiya" şöbəsinin müdiri, t.ü.f.d. **Tofiq Babayev**.

# Mükafatlar

**AR Elm və Təhsil Nazirliyinin** təşəbbüsü ilə elmi-tədqiqat institutlarında çalışan alimlərin maddi rifah halının yaxşılaşdırılması və elmi fəaliyyətlərinin stimullaşdırılması məqsədilə **Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi** tərəfindən hazırlanmış "Elmi iş müəlliflərinin müəllif balının hesablanması metodologiyası" əsasında bir sıra tədqiqatçıların maddi mükafatlandırılması həyata keçirilib.

"Metodologiyaya" əsasən müvafiq hesablamalar aparılıb və alimlər **"A", "B" və "C"** kateqoriyaları üzrə mükafatlandırılmışdır:

***"A" kateqoriyası üzrə:***

Ağası Məlikov Zərbəli oğlu

***"B" kateqoriyası üzrə:***

Yadulla Həsənli Həmdulla oğlu
Vaqif Abdullayev Maarif oğlu
Kamil Aydazadə Rəcəb oğlu

***"C" kateqoriyası üzrə:***

Rövşən Əliyev Telman oğlu
İlqar Məmmədov Qürbət oğlu
Mehriban İmanova Natiq oğlu
Rəşad Məstəliyev Oqtay oğlu
Telman Əliyev Abbas oğlu
Ramin Rzayev Rza oğlu
Vüqar Həşimov Adəm oğlu

# Təsərrüfat müqaviləsi ilə görülən işlər

İdarəetmə Sistemləri İnstitutunda aparılan elmi-tədqiqat işlərinin nəticələrini **“Kibernetika” XKB** ilə birgə respublikanın müxtəlif təşkilatlarında tətbiq edir, onlardan:

- Azərbaycan Respublikası Dövlət Neft Şirkəti **"Azneft"** istehsalat birliyi ilə 17 iyun 2025-ci ildə (№***333/XM/2025)*** imzalanmış müqaviləyə əsasən 236,16 min manat həcmində işlər davam edir;
- Kayman Adalarının **"Salyan OYL LİMİTED"** Şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə imzalanmış SO-2504-00059 nömrəli “Xidmət Sifarişi” müqaviləsi üzrə 26,77 min manat həcmində işlər davam edir;
- **"Binəqədi OYL Kompani"** Şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə 12 dekabr 2024-cü il tarixli PUR/BOC 087/24 saylı malların təchiz edilməsinə dair çərçivə müqaviləsinə və 14 yanvar 2025-ci il tarixli PO/25-000022 müqaviləyə əsasən 17,85 min manat həcmində işlər davam edir;
- **"Taghiyev Operating Company"** Məhdud Məsuliyyətli Cəmiyyəti ilə imzalanmış 21 may 2025-ci ildə (№ TOC017/2024 -21.05.2024) Xidmət müqaviləsinə əsasən 4,48 min manat həcmində işlər davam edir;
- Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin **"Regional Su Meliorasiya Xidməti"** publik hüquqi şəxsi ilə 23 oktyabr 2025-ci ildə (RSMX-152/2025 saylı təchizat müqaviləsi əsasında 230,000 min manat həcmində işlər yerinə yetirilib.
- Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin **"İqlim Elmi-İstehsalat Müəssisəsi"** ilə bağlanmış "İnersial Naviqasiya Sistemi əsaslı naviqasiya və hədəfə dönüş sisteminin yaradılması" üzrə müqavilə əsasında 120 min manat həcmində işlər yerinə yetirilmişdir.

Nəzərdə tutulur ki, 2026-ci ilin əvvəlində “Bərdə rayonu ərazisində subartezian quyuları üçün nəzarət və idarəetmə sisteminin işlənilməsi və qurulması” adlı sistem istismara veriləcək. Beləliklə ümumi görülən işlərin həcmi **635,26 min manat** təşkil edir, lakin 2025-ci ildə 300.00 min manat köçürülüb.

# Nəşriyyat fəaliyyəti

2025-ci ildə **367** elmi əsər dərc olunmuşdur.

Onlardan: **5** kitab (3-ü xaricdə), **1** monoqrafiya (xaricdə), **4** dərs vəsaiti, **3** metodik vəsait, **3** avrasiya patenti.

**305 məqalədən** (o cümlədən **169-u** konfrans materialı və **46** tezis):
Elmi jurnallarda **136 məqalədən:** 24-ü – Web of Science bazasında; 27-i – Scopus bazasında, 26-ı – РИНЦ bazasında, 12-i – digər xarici jurnallarda, 47-i – respublikada.

**Konfrans materialları üzrə:**
**169 məqalədən**: 67-i – Scopus bazasında, 1-i – РИНЦ bazasında, 39-u xaricdə, 62-ü – Respublikada;
**46 tezisdən**: 16-ı – Scopus bazasında, 17-i– xaricdə, 13-ü – Respublikada.

Cari ildə İnstitutun alimləri **215 məruzə** ilə **86 konfransda** iştirak etmişlər, onlardan xaricdə (Portuqaliya, ABŞ, Belarus, Qazaxıstan, Bolqarıstan, Çin Xalq Respublikası, Türkiyə, İspaniya, Özbəkistan, Pakistan, İngiltərə, Fransa, Polşa, Rumıniya, Gürcüstan, Rusiya, Avstriya, Ukrayna, Vyetnam, Braziliya) **keçirilən 42 konfransda 63 məruzə və** Respublikada (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan, Xankəndi) **keçirilən 44 konfransda 152 məruzə ilə çıxış etmişlər.**

**15 dekabr tarixinə kimi** institutun alimlərinin əsərlərinə Web of Science – **989,** Scopus - **1115** və Google Scholar bazalarında – **4290** istinad verilmişdir.

# Son 5 ilin bibliometrik göstəriciləri



# Jurnallar




İdarəetmə Sistemləri İnstitutunda AMEA-nın Xəbərləri (fiz.–texn. və riyaz. ser.) **“Informatics and Control Problems”** adlı ingilisdilli jurnal buraxılır (ISSN 2664-2085).

- 2025-ci ildə jurnalın 2 nömrəsi çap olunmuşdur (vol. 45, Issue 1 və Issue 2).
- 2024-cü ilin 2-ci nömrəsi çap olunmuşdur (vol. 44, Issue 2)




İdarəetmə Sistemləri İnstitutu **“Applied and Computational Mathematics”** (Tətbiqi və Hesablama Riyaziyyatı) beynəlxalq elmi jurnalının **təsisçilərindən biridir.**
Scopus bazasının **Q1** siyahısında yer alan jurnalın **baş redaktorları** İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, **akademik Əli Abbasov**, BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, **akademik Fikrət Əliyev** və Türkiyənin Ağrı İbrahim Çeçen Universitetinin **prof. Ahmet Ocak Akdemirdir.**

# Monoqrafiyalar və Kitablar




İdarəetmə Sistemləri İnstitutu tərəfindən Əməkdar Elm Xadimi, akademik Telman Əliyevin 90 illik yubileyinə həsr olunmuş, Bakı, 2025, 135 səh.




Asaf Hajiyev, Jiuping Xu "High-dimensional regression analysis and Artificial Intelligence: Theory, Methods and Applications", Springer nəşriyyatı, 2025, 440 səh.




Мурад Тагиев «Экономические аспекты детерминированного хаоса», Тбилиси, Университет Джорджия, 2025, 120 стр.




Eldar Şahbazov "Neft hasilatında mürəkkəbləşmələrə qarşı yaşıl enerji və nanotexnologiyalar", Bakı, 2024, 411 s.

***Models of Fuzzy Economics***



**Gorkhmaz Imanov**
**Legado Académico Nº 1**

***Models of Fuzzy Economics***

Contribución a la Escuela de Economía Humanista de Barcelona, 312 p.
Gorkhmaz Imanov
La realización de esta publicación ha sido posible gracias a

MINISTERIO DE CIENCIA, INNOVACIÓN Y UNIVERSIDADES

con la colaboración de

Fundación "la Caixa"



**Gorkhmaz Imanov**
*Corresponding Academician of Azerbaijan*

İspaniya Kral İqtisadiyyat və Maliyyə Elmləri Akademiyasının (RACEF) kitabxanası "Akademik İrs. Barselona humanist iqtisadiyyat məktəbinə töhfə" adlı yeni kolleksiyasında müvafiq akademiklərin və Barselona İqtisadi Şəbəkəsinin üzvlərinin iştirak etdiyi ilk nəşr edilmiş kitabı 2 saylı laboratoriyanın müdiri, i.e.d., prof., AMEA-nın müxbir üzvü Qorxmaz İmanovun "Qeyri-səlis iqtisadiyyat modelləri" kitabıdır.

# Dərs vəsaitləri




1. **A.B.Rəhimov**, F.T.İbiyev, M.E.Əhmədova və b. “İnformatika” – 20 variant sınaq imtahanı (I qrup, Ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun; müəllim, şagird və abituriyentlər üçün vəsait), Bakı, DİM –“Abituriyent”, 2025, 120 səh.




2. **А.Б.Рагимов**., Ф.Т.Ибиев, М.Э.Ахмедова и др. «Информатика» – 20 вариантов испытательных экзаменов (I группа, в соответствии с моделью вступительного экзамена в высшие учебные за-ведения; Пособие для пре-подавателей, учащихся и абитуриентов), Баку, ГЭЦ – «Абитуриент», 2025, 120 с.




3. **N.F.Musayeva**, R.Ö.Hüsynova, **M.T.Süleymanova.** “Təcrübi verilənlərin analizi və kompüterdə emalı üçün tapşırıqlar”. (“Təcrübi verilənlərin emalı texnologiyaları” fənnindən bakalavr pilləsində təhsil alan tələbələr üçün metodik vəsait, Bakı, 2025, 85 səh.

# Dərs vəsaitləri




4. **A.İ.Məmmədova**, M.V.Nağıyeva. "NETEMUL(Network Emulator) şəbəkə simulyasiya proqramı", (Bakalavr pilləsində təhsil alan tələbələr üçün metodik vəsait), Bakı, 2025, 49 s.




5. **Aysel Abdullayeva.** "Professional Microsoft Excel Visual Basic for Application", Master Academy Elm və Təhsil Mərkəzi, Bakı, 2025, 264 səh.




6. H.P.Vəliyev, **R.M.Zeynalov**. "Diferensial tənliklər" (dərs vəsaiti), Füyuzat nəşriyyatı, Bakı, 2025, 103 səh.

7. **Ü.M.Əlizadə**, A.Orucəliyev, A.Məmmədova. "İnformasiya təhlükəsizliyinin əsasları fənni üzrə testlər toplusu" (dərs vəsaiti), Bakı, 2025, 174 səh. (elmi redaktor: r.ü.f.d., dos. G.G.Abdullayeva).

# Kadr hazırlığı

**İnstitutda çalışan 175 elmi işçidən, 32 elmlər doktoru ( 3 - AMEA-nın həqiqi üzvü, 5 – AMEA-nın müxbir üzvü) və 50 fəlsəfə doktorudur.**

**2025-ci ildə İnstitutun 2 əməkdaşı texnika üzrə fəlsəfə doktoru elmi** dərəcəsi almaq üçün **dissertasiya işini müdafiə** etmişdir.

**Bir dissertasiya işi (fəlsəfə doktorluğu)** Azərbaycan Texniki Universitetinin nəzdində fəaliyyət göstərən dissertasiya şurasına **müdafiəyə dissertasiya işi təqdim edilmişdir.**

**7 dissertasiya işi tamamlanmaq ərəfəsindədir,** onlardan:
3-ü – elmlər doktoru elmi dərəcə almaq üçün;
4-ü – fəlsəfə doktoru elmi dərəcə almaq üçün.

# Kadr hazırlığı

**Bundan başqa İnstitut alimlərinin elmi rəhbərliyi** ilə digər təşkilatların 3 dissertantı (Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti) dissertasiya işini müdafiə etmişlər.

İdarəetmə Sistemləri İnstitutunun nəzdində fəaliyyət göstərən dissertasiya şuralarında **10 dissertasiya işinin müdafiəsi keçirilmişdir, onlardan:**

- **ED 1.19 dissertasiya şurasında (riyaziyyat sahəsi)** fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün – **2 dissertasiya işi**.
- **ED 1.20 dissertasiya şurasında (texnika sahəsi)** fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün – **8 dissertasiya işi.**

2025-ci ildə İnstitutun **1 əməkdaşı** fəlsəfə doktorluğu diplomu almışdır **(R.Əzimov),**
**1 əməkdaşa professor** elmi adı verilmişdir **(P.Heydərov).**

# İnstitutun elmi seminarında 5 məruzə edilmişdir

- **21 yanvarda** r.ü.f.d., dos. **Azər Kərimovun** “Müxtəlif siniflərdən olan siqnalların tanınmasında istifadə olunan yanaşmaların müqayisəsi üçün üsulların və alqoritmlərin işlənməsi” adlı mövzuda;
- **25 fevralda** dissertant **Ülviyyə Göyüşovanın** “Şəkillərin müqayisəsi üsulları haqqında” adlı mövzuda;
- **22 apreldə** t.e.d., dos. **Məzahir İsayevin** “Müasir ölçmə cihazlarının dəqiqliyini təmin etmək üçün avtomatlaşdırılmış kalibrləmə üsulları və vasitələri” adlı mövzuda;
- **4 noyabrda** t.ü.f.d., dos. **Rəna Əsədovanın** “Layların fiziki-kimyəvi xassələrini nəzərə almaqla neft hasilatı prosesinin riyazi modellərinin işlənilməsi” adlı mövzuda;
- **9 dekabrda** elmi işçi **Aynur Əliyevanın** “İnformatikanı sərbəst öyrənmənin intellektuallaşdırılması və biliyin qiymətləndirməsi üçün yanaşmalar” adlı mövzuda;



# DOKTORANTURA

İdarəetmə Sistemləri İnstitutunun fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura və dissertanturasında hal-hazırda 40 nəfər təhsil alır, onlardan: 35 doktorant (onlardan 1-i əcnəbi) və 5 dissertant, onlardan:

• Elmlər doktoru proqramı üzrə doktorantura yolu ilə – **11 nəfər**;

• Fəlsəfə doktoru proqramı üzrə doktorantura yolu ilə – **24 nəfər**, o cümlədən: 17-si əyani (onlardan ödənişli: 1-i – öz vəsait hesabına, 2-si – müəssisə hesabına (1-i əcnəbi));

• Dissertantura yolu ilə – **5 nəfər**.

# Təltiflər və Mükafatlar



**Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2025-ci** il tarixli Sərəncamına əsasən AMEA-nın 80 illik yubileyi münasibətilə Azərbaycan elminin inkişafında xidmətlərinə görə r.e.d., professor, **AMEA-nın müxbir üzvü Kamil Ayda-zadə 3-cü dərəcəli "Əmək" ordeni** ilə **təltif edilib.**




**Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2025-ci** il tarixli Sərəncamına əsasən Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illiyi münasibətilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə **t.e.d., prof. Nailə Musayeva "Tərəqqi" medalı ilə təltif edilib.**

# Təltiflər və Mükafatlar



Azərbaycan Respublikasının Prezidentinin **31 yanvar 2025**-ci il tarixli “2025-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında” sərəncamına əsasən 1 saylı “Tanıma, identifikasiya və optimal qərar qəbuletmə üsulları” laboratoriyasının elmi işçisi **Əzimov Rüstəm Bəkir oğlu Prezident mükafatına layiq görülüb.**




**11 aprel 2025-ci il tarixində** AMEA-nın Mərkəzi Elmi Kitabxanasında **Elm Gününə həsr** edilmiş tədbir çərçivəsində **əldə etdikləri elmi nailiyyətlərə və elmin populyarlaşdırılmasına verdikləri töhfələrə görə** bir sıra alim, o cümlədən AMEA-ın müşaviri, **t.e.d., prof., akademik Telman Əliyev AMEA-nın Fəxri Fərmanı** ilə təltif edilib.

# Təltiflər və Mükafatlar




11 iyul 2025-ci il tarixində t.e.d., prof. **Eldar Qəşəm oğlu Şahbazov** elmi nailiyyətlərinə görə Rusiya Təbiət Elmləri Akademiyasının ən yüksək mükafatlarından biri olan görkəmli Azərbaycan alimi, Dövlət mükafatları laureatı, Əməkdar elm və texnika xadimi, fəxri neftçi “Akademik Azad Mirzəcanzadə adına gümüş medal” ilə təltif olunub. Qeyd edək ki, bu medal dünyada azərbaycanlı alimin adına təsis edilən ilk beynəlxalq mükafatdır.



AMEA Rəyasət Heyətinin **31 oktyabr 2025-ci** il tarixli qərarı İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, t.e.d., prof., **akademik Əli Abbasov** ilə Süni İntellektin nəzəri və tətbiqi sahəsində xidmətlərinə görə AMEA-nın **"Lev Landau döş nişanı" ilə təltif edilib**.

# Xarici təşkilatlara, beynəlxalq cəmiyyətlərə, jurnallara üzvlük



**2025-ci ildə** Asiya İnkişaf Bankı tərəfindən elan edilmiş tenderdə “Digital CAREC: National e-Logistics Platforms and Digitalization of transport Corridors in CAREC countries” adlı CAREC İnstitutuna dəstək layihəsinin yerinə yetirilməsi üçün **t.ü.f.d. Tofiq Babayev beynəlxalq ekspert seçilib.**




**Gürcüstan Milli Elmlər Akademiyasının 23 iyul 2025-ci il tarixli** qərarı ilə **r.e.d., prof., akademik Asəf Hacıyev** elmi əlaqələrinin inkişafındakı müstəsna xidmətlərinə, riyaziyyat elminin inkişafına bəxş etdiyi mühüm töhfələrə görə **xarici üzvü seçilib.**

- T.e.d., prof., **AMEA-nın müxbir üzvü Ağası Məlikov** 2025-ci ildə WoS platformasında Q1 kateqoriyasına daxil olan **“International Journal of Computational Intelligence Systems”** (Springer) jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.
- **R.ü.f.d., dos. Gülçin Abdullayeva “Qadınlar elmdə və təhsildə”** Beynəlxalq Cəmiyyətin üzvü seçilmişdir.
- **R.e.d., dos. Anar Rəhimov** AR Elm və Təhsil Nazirliyinin Elm və Təhsil üzrə Dövlət Agentliyinin təqdim etdiyi elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H-indeksi) yaxşılaşdırılması üzrə Alt işçi qrupunun üzvlərinin tərkibinə daxil edilmişdir.

# 2025-ci ildə İnstitutun əməkdaşları IEEE-yə üzv olmuşlar

| № | Full Name | IEEE Member Number |
|---|---|---|
| 1. | Ali Abbasov | 99161018 |
| 2. | Kamil Aida-zade | 100831371 |
| 3. | Agassi Melikov | 100829135 |
| 4. | Elchin Aliyev | 99177139 |
| 5. | Elkhan Sabziyev | 101040214 |
| 6. | Gambar Quluyev | 99169746 |
| 7. | Tofig Babayev | 97669744 |
| 8. | Tahir Alizada | 99173320 |
| 9. | Rustam Azimov | 101309525 |
| 10. | Khanmurad Abdullayev | 101336330 |
| 11. | Aygun Aliyeva | 100828494 |
| 12. | Abulfat Rahmanov | 101336750 |

# Elmi seminarlarda, TV verilişlərində və Mətbuatda iştirak

İnstitutun laboratoriya müdiri, **t.e.d., professor Ramin Rzayev** mütəmadi olaraq **CBC** telekanalında yayımlanan "Günün İqtisadiyyatı" verilişinin qonağı olaraq aktual mövzuların müzakirəsində iştirak edir.




13 yanvar 2025




20 yanvar 2025




23 yanvar 2025




6 fevral 2025




10 mart 2025




17 mart 2025



23 iyun 2025




3 oktyabr 2025

# Elmi seminarlarda, TV verilişlərində və Mətbuatda iştirak



21 yanvar 2025-ci il tarixində 525-ci qəzetə verdiyi müsahibədə akademik **Əli Abbasov** qeyd etmişdir ki, "Qeyri-səlis məntiq və Dil-Nitq" kitabının Azərbaycan dilində süni intellekt sistemləri və chatbotların yaradılmasındakı rolu Kamal Abdulla və Rafiq Əliyevin "Qeyri-səlis məntiq və Dil-Nitq" kitabı Azərbaycan dilinin strukturunu və işləmə mexanizmlərini qeyri-səlis məntiq prizmasından dərinliklə araşdıran bir əsərdir. Bu kitabın Azərbaycan dilində süni intellekt sistemləri, xüsusilə də chatbotların yaradılması üçün mühüm bir rolu ola bilər.




2025-ci ilin fevral ayında institutun əməkdaşı, Gənclər üçün Prezident Mükafatına layiq görülmüş, 1 saylı laboratoriyanın elmi işçisi **Rüstəm Əzimov** “Təhsil” TV verilişinə dəvət olunmuşdur.

# Elmi seminarlarda, TV verilişlərində və Mətbuatda iştirak



27 mart 2025-ci il tarixində – “Elm Günü”nə həsr olunmuş BDU-nun “Tətbiqi riyaziyyat və kibernetika” fakültəsinin təşkilatçılığı ilə t.e.d., prof. **Ramin Rzayev** tərəfindən “Süni intellekt: cari vəziyyəti və gələcəkdə istifadəsindən sinergetik effekt” mövzusunda elmi sessiya keçirilib.



17 aprel 2025-ci il tarixində – Riyaziyyat və Mexanika İnstitutun elmi seminarında t.e.d. prof. **Ramin Rzayevin** “Süni Intellekt və rəqəmsal iqtisadiyyatın cari vəziyyəti və inkişaf perspektivləri” mövzusunda məruzəsi süni intellekt texnologiyalarının rəqəmsal iqtisadiyyatda perspektiv təsirinin öyrənilməsinin aktuallığına həsr olunub.



# Elmi seminarlarda, TV verilişlərində və Mətbuatda iştirak



23 aprel 2025-ci il tarixində İnstitutun laboratoriya müdiri, t.e.d., professor **Ramin Rzayev** Riyaziyyat və Mexanika İnstitutunun növbəti Ümuminstitut seminarında “Süni intellekt və rəqəmsal iqtisadiyyat: cari vəziyyət və inkişaf perspektivləri” mövzusunda məruzə ilə çıxış etmişdir.



1 iyun 2025-ci il tarixində AMEA-nın müşaviri, t.e.d., prof., akademik, Əməkdar Elm Xadimi **Telman Əliyev** 90 illik yubileyinə həsr olunmuş REAL TV-nin “Profil” verilişinə müsahibə vermişdir.

# Elmi seminarlarda, TV verilişlərində və Mətbuatda iştirak



28 avqust tarixində akademik **Əli Abbasov** AzEdu.az saytında İdarəetmə Sistemləri İnstitutunda süni intellekt əsaslı “robot repetitor” sisteminin üzərində işlərin aparılması haqqında məlumatda deyib ki, “Məqsədimiz repetitor xidmətlərinə çıxışı olmayan abituriyentlərə keyfiyyətli və əlçatan təhsil dəstəyi təqdim etməkdir. Virtual müəllimlər vasitəsilə şagirdlər tarix, coğrafiya, riyaziyyat və digər fənləri interaktiv şəkildə öyrənə biləcəklər”.



17 oktyabr tarixində t.e.d., prof. **Ramin Rzayev** Geologiya və Geofizika İnstitutunda Yer elmləri sahəsində Ümumrespublika elmi seminarında “Seysmoloji trasların təhlilində qeyri-səlis məntiq üsullarının tətbiqi: qanunauyğunluqların aşkarlanması və trendlərin proqnozlaşdırılması” mövzusunda məruzə ilə çıxış etmişdir.



30 oktyabr 2025-ci il tarixində Riyaziyyat və Mexanika İnstitutunun elmi seminarında r.ü.f.d., dos. **Rəşad Məstəliyev** “Birinci tərtib stoxastik hiperbolik tənliklərlə təsvir olunan bir optimal idarəetmə məsələsində məxsusi idarələrin optimallığı haqqında” mövzusunda məruzə ilə çıxış etmişdir.

# İnstitutun elmi əlaqələri

**RESPUBLİKA TƏŞKİLATLARI İLƏ:**

- **Sumqayıt Dövlət Universiteti ilə** 2023-2027-ci illər ərzində "Proseslərin intellektual idarəetmə alqoritm və modellərinin işlənməsi" mövzusu müzakirə edilmiş və "Kontrollerli idarəetmə simulyasiyalı tədqiqi və tətbiqi modullarının işlənməsi" elmi-tədqiqat işi üzrə birgə tədqiqatlar aparılır.

- **Azərbaycan Dövlət İqtisad Universiteti** (UNEC) ilə birgə beynəlxalq konfransların keçirilməsi.

- **Azərbaycan Memarlıq və İnşaat Universiteti** ilə birgə beynəlxalq konfransların keçirilməsi və elm və təhsil sahəsində əməkdaşlıq.

- **Azərbaycan Texniki Universiteti** ilə 2023-2025-ci illər üzrə İdarəetmə Sistemləri İnstitutunun aparılacaq elmi tədqiqat işlərinin əhatəli planına əsasən "Müasir telekommunikasiya infrastrukturunun yaradılması aspektində rəqəmli iqtisadiyyata keçid modelinin işlənilməsi" yerinə yetirilir (rəhbər – t.e.d., prof. Bayram İbrahimov və İnstitutun doktorant və dissertantları tərəfindən) və 2025-ci ildə imzalanmış memoranduma əsasən elmi əməkdaşlıq davam edir.

- **Bakı Dövlət Universiteti** ilə birgə elmi sessiyaların və seminarların keçirilməsi.

- **Bakı Mühəndislik Universiteti** ilə birgə beynəlxalq konfransların və İnstitutda tələbələrin təcrübə keçirilməsi istiqamətində.

# İnstitutun elmi əlaqələri

- **Milli Müdafiə Sənayesi Nazirliyi İqlim Elmi-İstehsalat Müəssisənin** müqaviləsi əsasında *“İnersial Naviqasiya Sistemi əsaslı naviqasiya və hədəfə dönüş sisteminin yaradılması”* adlı elmi tədqiqat işinin tətbiqi.

- Azərbaycan Respublikası Müdafiə Nazirliyi, **Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu** ilə birgə elmi tədqiqat işləri aparılır.

- **Gəncə şəhərində Azərbaycan Texnologiya Universiteti** ilə birgə konfransların sessiyasının keçirilməsi, əməkdaşların elmlər doktoru proqramı üzrə İnstitutun doktoranturasına qəbul edilməsi.

- **Naxçıvan Dövlət Universiteti ilə** 2023-2026-ci illər üzrə “Təhsil Web saytlarının qiymətləndirilməsi üçün hibrid metod və alqoritmlər kompleksinin işlənməsi və tədqiqi” elmi tədqiqat işi yerinə yetirilməsi və Universitetin doktorant və dissertantlarının dissertasiya işləri üzrə İnstitutun alimlərinin elmi rəhbər təyin edilməsi.

- **SOCAR “Neftqazelmitədqiqatlayihə” İnstitutu** ilə birgə layihə üzərində işlər aparılması;

- **SOCAR-ın Bibiheybətneft, Abşeronneft, Əmirovneft** mədənlərində aparılan elmi tədqiqatların tətbiqi;

# İnstitutun elmi əlaqələri

**2025-ci ildə** İdarəetmə Sistemləri İnstitutunun nəzdində fəaliyyət göstərən Təcrübi İstehsalatlı **“Kibernetika”** Xüsusi Konstruktor Bürosu Azərbaycan Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxsi tərəfindən elan olunmuş ***“Bərdə rayonu ərazisində subartezian quyuları üçün nəzarət və idarəetmə sisteminin işlənilməsi və qurulması”*** üzrə keçirilmiş **tenderin qalibi** olmuşdur.

Tətbiq olunan sistem İdarəetmə Sistemləri İnstitutu və Xüsusi Konstruktor Bürosunda işlənib hazırlanmış və beynəlxalq standartlara cavab verən **SCADA (Supervisory Control And Data Acquisition) prinsipi əsasında qurulmuş intellektual nəzarət və idarəetmə sistemidir.**

**2025-ci ildə İnstitut 2 təşkilatla əməkdaşlıq haqqında sənədlər imzalamışdır**:

- **Geologiya və Geofizika İnstitutu** ilə elmi əməkdaşlığa dair müqavilə *(03.06.2025-ci il – 5 illik).*
- **Bakı Mühəndislik Universiteti** ilə tələbələrin ixtisas üzrə təcrübə keçirilməsinə dair müqavilə *(31.10.2025 – 2 illik).*

**Bundan başqa digər illərdə imzalanmış sənədlər üzrə əməkdaşlıq davam edir:**

- **Azərbaycan Texniki Universiteti** ilə elmi-tədqiqat üzrə fəaliyyətlərin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında anlaşma memorandumu *(23.01.2024 – 5 illik).*
- **Azərbaycan Memarlıq və İnşaat Universiteti** ilə elm və təhsil sahəsində əməkdaşlıq müqaviləsi (*12.06.2024 – 3 illik).*

# Beynəlxalq əlaqələr

- Çexiya
- İspaniya
- İtaliya
- Macarıstan
- Yunanıstan
- Hindistan
- Çin
- Şimali Kipr
- Türkiyə
- Özbəkistan
- Fransa
- C. Koreya
- ABŞ
- Rusiya
- Gürcüstan
- Ukrayna
- Belarus
- Polşa
- Türkmənistan
- Litva




İnstitutun “Beynəlxalq əlaqələr və innovasiya” şöbəsinin müdiri**, t.ü.f.d. Tofiq Babayev Avropa İttifaqının** “Harmonizing Digital Market Initiative” üzrə **Azərbaycan təmsilçisi**, **Aİ-nin HORIZON EUROPE proqramının Rəqəmsal, Sənaye və Kosmos istiqaməti üzrə əlaqələndirici şəxsidir.**

# Beynəlxalq əlaqələr

- **Dokuz Eylül Üniversitesi ilə** (Türkiyə, İzmir şəh.) 2021-ci ildən indiyə kimi r.e.d., prof. **Əfəndi Nəsibov** tərəfindən İdarəetmə Sistemləri İnstitutunun aparılacaq elmi tədqiqat işlərinin əhatəli planına əsasən elmi-tədqiqat işləri aparılır.

  2024-2025-ci illərdə "Yumşaq hesablama (soft computing) texnologiyalarına dayanan modellərin və alqoritmlərinin tədqiqi" mövzusu üzrə "Böyük şəhərlərdə Mövqe Qiymətləndirmə İndeksinə dayanan alqoritmlərin işlənməsi və tətbiqi məsələləri" (2024-2025) elmi-tədqiqat işi yerinə yetirilib.

- **Türkiyənin Ege Universiteti** ilə birgə konfransların keçirilməsi;

- **Belarus Dövlət İnformatika və Radioelektronika Universiteti** ilə birgə məqalələr dərc olunur, qrant layihələri təqdim edilir.

- **Yunanıstanın Fessaliya Universiteti (Afina şəh.)** ilə **"ERASMUS+"(**Action KA171) akademik mobillik qrant proqramı başa çatdırılmışdır,lakin əlaqələr kəsilməmiş, birgə məqalələr yazılır və birgə elmi-tədqiqatların aparılması nəzərdə tutulur.

- **Türkiyənin Ege Universiteti, Ukraynanın V.M.Qluşkov adına Kibernetika İnstitutu**, **Qazaxıstanın İnformasiya və Hesablama Texnologiyaları İnstitutu, Yunanıstanın Thessaly Universiteti, Özbəkistanın Daşkənd Dövlət Nəqliyyat Universiteti** ilə birgə beynəlxalq konfransların keçirilməsi və həmin təşkilatlarda keçirilən konfranslarda İnstitut əməkdaşlarının iştirakı.

# Beynəlxalq əlaqələr

- **Ankara Universiteti** ilə “Azərbaycan dilinin emosional vektoru” adlı elmi-tədqiqat işi yerinə yetirilir. Başda t.e.d. Rafiq Səməd olmaqla Ankara Universitetinin bir qrup tədqiqatçısı ilə birgə İnstitutun əməkdaşları TUBİTAKın "Azərbaycan dilinin emosional vektoru" (2024-2025) layihəsi üzrə elmi əməkdaşlığa cəlb edilmişdir. Layihə çərçivəsində bir məqalə hazırlanmış və nəticələr UBMK konfransında məruzə şəklində təqdim olunmuşdur (10th International Conference on Computer Science and Engineering (UBMK), İstanbul, 2025, september 17-21)

- **Daşkənd Nəqliyyat Universiteti ilə** “Dəmiryolunda diaqnostika və idarəetmə məsələləri” adlı elmi-tədqiqat işi yerinə yetirilir. Daşkənd Nəqliyyat Universiteti ilə 2023-cü ildə əməkdaşlıq haqqında imzalanmış memorandum çərçivəsində həyata keçirilən birgə elmi tədqiqatlar üzrə məqalə hazırlanmış və nəticələr MCIT`2025 konfransına məruzə şəklində təqdim olunmuşdur.

- R.e.d., professor **Əfəndi Nəsibov** İdarəetmə Sistemləri İnstitutunun nəzdində fəaliyyət göstərən **ED 1.19 dissertasiya şurasının** (riyaziyyat sahəsində); İstanbul Texniki Universitetinin “Təyyarə və Kosmik Elmlər” fakültəsinin professoru, t.e.d. **Çingiz Məmməd oğlu Hacıyev** və REA V.A.Trapeznikov adina İdarəetmə Problemləri İnstitutunun laboratoriya müdiri, t.e.d., dos. **Mais Paşa oğlu Fərhadov ED 1.20** (texnika sahəsində) **dissertasiya şurasının üzvüdürlər**.

**2025-ci ildə** İnstitutun alimləri tərəfindən digər ölkələrin (Rusiya, Çin Xalq Respublikası, Yunanıstan, Başkortostan, İndiya, Belorusiya, Bolqariya, Türkiyə) alimləri ilə **birgə 15 elmi əsər dərc edilib.**

## XARİCİ TƏŞKİLATLARLA İMZALANAN SƏNƏDLƏR

**2025-ci ildə İdarəetmə Sistemləri İnstitutu ilə xarici müəssisələr arasında əməkdaşlıq haqqında sənədlər imzalanmışdır:**

- **Sargodha Universiteti (İslamabad, Pakistan)** ilə əməkdaşlıq niyyətnaməsi (İOC) (30.05.2025-ci il – 5 illik )
- **Özbəkistan Respublikasının Rəqəmsal Texnologiyalar Nazirliyi yanında Rəqəmsal Texnologiyaların və Süni İntellektin İnkişafı Tədqiqat İnstitutu** ilə əməkdaşlıq memorandumu (08.08.2025-ci il – 3 illik ).

# Beynəlxalq əlaqələr

**Həmçinin digər illərdə imzalanmış sənədlər üzrə əməkdaşlıq davam edir:**

- İqtisadiyyat və Pedaqoji Universiteti ilə (Özbəkistan) təhsil arasında beynəlxalq **elmi mübadilə haqqında saziş** *(07.02.2023 – 5 illik);*

- National Engineering Research Center for Satellite Remote Sensing Applications (NECRSA) **anlaşma memorandumu** *(06.09.2023 – 5 illik)*

- "Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq Federal Tədqiqatlar Mərkəzi" Federal Dövlət Büdcə Elm İnstitutu (REA SPb FTM) ilə **əməkdaşlıq müqaviləsi** *(07.03.2023 – 5 illik);*

- Çin Xalq Respublikasının Guangzhou Universiteti ilə **elmi-texniki əməkdaşlıq haqqında memorandum *(21.04.2024 – 5 illik);***

- JG INTERNATIONAL JOINT LABORATORY (Çin Xalq Respublikası Shaoxing şəhəri Keqiao rayonu) ilə qarşılıqlı **anlaşma memorandumu** *(02.12.2024 – 3 illik)*

# Xarici alimlərlə görüşlər

**17 fevral 2025.** Azərbaycan əsilli Ukrayna alimi, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Belarus, Rusiya və Ukrayna Tətbiqi Radioelektronika Akademiyasının akademiki, Xarkov Milli Radioelektronika Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, Xarkov vilayəti "Azərbaycan-Ukrayna dostluq cəmiyyəti" idarə heyətinin sədri, **professor Murad Ömərovla görüş keçirilib.**

**15 may 2025. Springer Nature nəşriyyatının Şərqi Avropa üzrə vitse-prezidenti Aleksandr Biryukovla** keçirilmiş görüşdə akademik Telman Əliyevin 90 illik yubileyinə həsr olunan Şərq-Qərb Nəqliyyat Dəhlizində Logistika, İdarəetmə və İstismar Problemləri (PLMO-2025) üzrə 4-cü beynəlxalq konfrans barədə fikirlərini bölüşüb, konfransın işini müsbət qiymətləndirərək qarşıda duran vəzifələrdən söz açıb.



# Xarici alimlərlə görüşlər

**13-15 may 2025.** Bolqarıstanın Angel Kançev adına Ruse Universitetinin professoru **Asen Asenov** və professor **Velizara Pençeva** ERASMUS+ layihəsində iştirak müqaviləsi çərçivəsində iki qurum arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə İnstitutda olmuşlar.





**30 may 2025.** Yunanıstanın Thessaly Universitetinin Texnologiya Məktəbinin "Ətraf mühit elmləri" Bölməsinin professoru **Providas Efthimios** və digər əməkdaşlar Avropa Komissiyasının ERASMUS+(Action KA171) akademik mobillik qrant Proqramının layihəsi ilə bağlı müzakirələrin aparılması məqsədi ilə İnstitutda olmuşlar.



**30 iyun 2025.** İdarəetmə Sistemləri İnstitutunda BDU-nun Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İnstitutu ilə birgə Avrasiya Hospital və Etalon Hospitalın dəstəyi ilə "Üstün zəkalı insanların inkişafının məhdudiyyətsizliyi, qüsurlu insanların həyata müsbət baxışları mövzusunda **TÜBİTAK-ın professoru Turgay Karakaş** ilə seminar keçirilib.



# XARİCDƏ KEÇİRİLƏN TƏDBİRLƏRDƏ İNSTİTUT ALİMLƏRİNİN DƏVƏT OLUNMASI VƏ İŞTİRAKI

İnstitutun əməkdaşları xaricdə keçirilən konfransların təşkilat və proqram komitələrinin üzvü, sektor rəhbərləri kimi, məruzə oxumaq məqsədilə, elmi-tədqiqat işlərinin müzakirəsi ilə və s. məsələlərlə bağlı tanınmış elmi müəssisələrə dəvət olunurlar.

**2025-ci ildə institutun alimləri aşağıdakı beynəlxalq tədbirlərdə dəvət olunmuşlar:**

- **Moskva şəhərində** “Qadın ixtiraçıların, texnoloji sahibkarların II Avrasiya Konfransı”na;
- **Portuqaliyanın Portu şəhərində** “Nümunələrin tanınması tətbiqləri və metodları (İCPRAM - 2025) üzrə 14-cü beynəlxalq konfransa;
- ERASMUS+ proqramı çərçivəsində **Bolqarıstanın Ruse şəhərindəki "**Angel Kanchev" adına Ruse Universitetində beynəlxalq treninqə;
- **Özbəkistanın** Romanovski adına Riyaziyyat İnstitutuna;
- Thessaly Universitetində **(Yunanıstan, Larissa şəh.)** Erasmus+ Mobillik tədris proqramı çərçivəsində təlim kurslarına;
- **Özbəkistanın Daşkənd Dövlət Nəqliyyat Universitetinin təkilatçılığı ilə** keçirilən "Железнодорожный подвижной состав: проблемы, решения, перспективы" adlı 4-cü beynəlxalq elmi-texniki konfransa;
- **Pakistanın İslamabad şəhərində** keçirilən CAREC İnstitutunun 5-ci illik (5th CAREC Institute Annual Research Conference) tədqiqat konfransına;
- **Polşanın Katovitse** şəhərində Sileziya Texnologiya Universitetinin təşkilatçılığı ilə keçirilən «Transport Problems» **(TP‘2025) adlı XVII beynəlxalq elmi konfransa;**
- **İsveç, Cenevrə şəhərində** Beynəlxalq Telekommunikasiya İttifaqı və BMT-nin 47 agentlikləri ilə birgə təşkil olunmuş “AI for Good-2025” Qlobal Zirvə Toplantısına;

# XARİCDƏ KEÇİRİLƏN TƏDBİRLƏRDƏ İNSTİTUT ALİMLƏRİNİN DƏVƏT OLUNMASI VƏ İŞTİRAKI

- Beynəlxalq İdarəetmə Elmi və Mühəndislik İdarəetmə Cəmiyyəti (ISMSEM) və **Fransanın** Lille Universitetinin təşkilatçılığı ilə silsiləvi şəkildə "İdarəetmə elmi və mühəndislik idarəetmə" adlı XIX Beynəlxalq konfransa (International Conference on Management Science and Engineering Management (ICMSEM 2025);

- **Özbəkistanın Səmərqənd şəhərində** keçirilən "Müstəqil Dövlətlər Birliyi ölkələrində süni intellekt texnologiyalarının inkişafı" foruma (AI FORUM CIS 2025);

- **Gürcüstanın Kutaisi şəhərində** Akaki Tsereteli adına Kutaisi Universitetinin təşkilatçılığı ilə keçirilən "Transport Bridge Europe-Asia" adlı 9-cu Polşa-Gürcüstan Beynəlxalq elmi konfransa;

- **Avstriya, Vyena şəhərində** Atom Enerjisi Beynəlxalq Agentliyi təşkilatçılığı ilə keçirilmiş "Nüvə obyektlərinin xarici təsirlərə qarşı dayanıqlığı" adlı beynəlxalq konfransa;

- **Ukraynanın Rivne şəhərində** keçirilən "Modelləşdirmə, idarəetmə və informasiyanın texnologiyaları" adlı VIII Beynəlxalq elmi-praktiki konfransa;

- **Vyetnamın Hanoy şəhərində** Le Qay Don Texniki Universitetində Springer nəşriyyatının dəstəyilə keçirilən ICR-2025 X beynəlxalq elmi konfransa.

# Elmlə təhsilin inteqrasiyası

İdarəetmə Sistemləri İnstitutu bir çox ali təhsil müəssisələri ilə beynəlxalq konfransların təşkilatçısı olur, institutun bir sıra alimləri respublikanın bir çox universitetlərinin (BDU, ADNSU, UNEC, AzTU, AU, AzMİU, BMU, ADA, MMU Hərbi Elmi Tədqiqat İnstitutu və s.) müxtəlif kafedralarında çalışır, birgə tədqiqatlar aparır, keçirilən konfransların təşkilat və proqram komitələrinin üzvü seçilir, magistr, doktorant və dissertantların elmi rəhbəri təyin olunur və s.

**22 aprel 2025-ci il** tarixində institutun əməkdaşları (r.e.d., dos. **A.Rəhimov**, i.ü.f.d., dos. **A.Əliyeva**, elmi işçi **S.Hidayətzadə**) Bakı Ali Neft Məktəbində (BANM) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci illiyinə həsr olunmuş Tələbə və Gənc tədqiqatçıların VI Beynəlxalq elmi konfransı – "İNFOTECH 2025"-də **münsiflər heyətinin tərkibində** iştirak etmişlər.

**Elmi işçi Valeriya Puşnova** 2025-ci ilin fevral və mart aylarında Beynəlxalq vebinarlarda (Компания «Просвещение» «Образовательные вебинары», Россия, Москва) iştirak etmiş və sertifikat almışdır:
– *26 fevral tarixində* - «Компоненты успешности млпдшего школьника: математическая и информационная грамотность»
– *5 mart tarixində* - «Учебники для детей с ОВЗ в ФПУ. Цифровые образовательные ресурсы для обучающихся с особыми образовательными потребностями».






# Elmlə təhsilin inteqrasiyası

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ilə ELMİ-TƏDQİQATLARIN APARILMASI

İdarəetmə Sistemləri İnstitutunun 2023-2027-ci illər üzrə **Sumqayıt Dövlət Universiteti** ilə birgə elmi-tədqiqat işləri yerinə yetirilir.

- **Naxçıvan Dövlət Universiteti ilə** 2023-2026-ci illərdə "Təhsil Web saytlarının qiymətləndirilməsi üçün hibrid metod və alqoritmlər kompleksinin işlənməsi və tədqiqi" elmi tədqiqat işi yerinə yetirilir.
- **Azərbaycan Texniki Universiteti ilə** imzalanmış memorandum üzrə işlər yerinə yetirilir.
- **Dokuz Eylül Üniversiteti ilə** (Türkiyə, İzmir şəh.) "Yumşaq hesablama (soft computing) texnologiyalarına dayanan modellərin və alqoritmlərinin tədqiqi" mövzusu üzrə elmi-tədqiqat işi yerinə yetirilir.
- **Belarus Dövlət İnformatika və Radioelektronika Universiteti ilə** birgə məqalələr dərc olunur, qrant layihələri təqdim edilir.
- **2025-ci ildə Yunanıstanın Fessaliya Universiteti (Afina şəh.) ilə "ERASMUS+ (Action KA171)"** və **Bolqarıstanın Ruse Angel Kanchev Universiteti ilə "ERASMUS+ (ActionKA131)"** proqramı çərçivəsində "Ali təhsil tələbələri və işçi heyəti üçün mobillik" qrant layihələri başa çatmışdır.
- **2025-ci ildə** Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən ümumi **orta təhsil üzrə 9-cu və 11-ci sinif buraxılışın yekun qiymətləndirmə imtahanlarında** 2023-cü ildə təkmilləşdirilmiş **"Formaların tanıma sistemi" tətbiqi proqramlar paketi tətbiq edilmişdir.**

# Elmlə təhsilin inteqrasiyası

**ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ilə İMZALANMIŞ MEMORANDUMLAR, MÜQAVİLƏLƏR**

**2025-ci ildə 3 Ali təhsil müəssisələri ilə əməkdaşlıq haqqında sənədlər imzalanmışdır:**

- **Sargodha Universiteti** (İslamabad, Pakistan) ilə əməkdaşlıq niyyətnaməsi (30.05.2025, 5 il müddətinə);
- **Özbəkistan Respublikasinin Rəqəmsal Texnologiyaların və Süni İntellektin İnkişafı Tədqiqat İnstitutu ilə əməkdaşlıq memorandumu (8.08.2025, 3il müddətinə).**
- **Bakı Mühəndislik Universiteti** ilə tələbələrin ixtisas üzrə təcrübə keçirilməsinə dair müqavilə (31.10.2025, 3 il müddətinə).

**Davam etdirilən sənədlər:**

1. 23 aprel 2022-ci il tarixli (müddətsiz) Özbəkistanın Daşkənd Dövlət Nəqliyyat Universiteti ilə əməkdaşlıq haqqında müqavilə.
2. 7 fevral 2023-cü il tarixli (5 il müddətinə) Iqtisadiyyat və Pedaqoji Universiteti ilə (Özbəkistan) beynəlxalq elmi mübadilə haqqında saziş.
3. 23 yanvar 2024-cü il tarixli (5 il müddətinə) Azərbaycan Texniki Universiteti ilə elmi-tədqiqat üzrə fəaliyyətlərin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında imzalanmış anlaşma memorandumu.
4. 21 aprel 2024-cü il tarixli (5 il müddətinə) Çin Xalq Respublikasının Guangzhou Universiteti ilə elmi-texniki əməkdaşlıq haqqında memorandumu.
5. 12 iyun 2024-cü il tarixli (3 il müddətinə) Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə elm və təhsil sahəsində imzalanmış əməkdaşlıq müqaviləsi.

## MÜSABİQƏLƏRDƏ İŞTİRAK

**2025-ci ildə** Azərbaycan Respublikası **Elm Fondu tərəfindən elan edilən 4-cü Azərbaycan-Türkiyə ("AzTürk-4") birgə beynəlxalq qrant müsabiqəsinə** İdarəetmə Sistemləri İnstitutu bir sıra Türkiyə Universitetləri ilə **(**Dokuz Eylül Universiteti, İzmir Katip Çelebi Universiteti) "Süni intellektlə işləyən karbon izi izləmə və təşviq sisteminin hazırlanması (Yaşıl Sərnişin)" ("Development of an AI-Powered Carbon Footprint Tracking and Incentive System (Green Passenger)" adlı layihə təqdim etmişdir. (Rəhbər: İdarəetmə Sistemləri İnstitutunun laboratoriya müdiri, professor Kamil Ayda-zadə).

## TƏHSİL İLƏ BAĞLI DƏRC EDİLMİŞ ƏSƏRLƏR

**2025-ci ildə** İnstitutun alimləri tərəfindən təhsil ilə bağlı **10 elmi əsər** dərc edilmişdir, onlardan:
6 (dərs və vetodik) vəsait ("İnformatika" – 20 variant sınaq imtahanı – rus və azərbaycan dillərində – I qrup, Ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun müəllim, şagird və abituriyentlər üçün vəsait; "Təcrübi verilənlərin emali texnologiyaları" fənnindən bakalavr pilləsində təhsil alan tələbələr üçün metodik vəsait; "NETEMUL (Network Emulator) şəbəkə simulyasiya proqramı. (bakalavr pilləsində təhsil alan tələbələr üçün metodik vəsait); "Professional Microsoft Excel Visual Basic for Application"; **"**Diferensial tənliklər" dərs vəsaiti)
4 məqalə, o cümlədən 3-ü Scopus bazasında və 1-i xaricdə ( Rusiya).

# Elmlə təhsilin inteqrasiyası

## TƏLƏBƏLƏRİN TƏCRÜBƏ KEÇMƏSİ

17 fevral 2025-ci il tarixindən etibarən İdarəetmə Sistemləri İnstitutu ilə Respublikanın ali təhsil müəssisələri arasında kadr hazırlığı sahəsində əməkdaşlıq çərçivəsində bakalavriat və magistratura səviyyəsi üzrə təhsil alan tələbələr İnstitutda istehsalat və elmi tədqiqat təcrübəsi keçiblər.

| | | | |
|---|---|---|---|
| **Azərbaycan Memarlıq və İnşaat Universitetindən** | **17 bakalavr<br>24 magistr** | **Azərbaycan Dövlət İqtisad Universitetindən (UNEC)** | **45 bakalavr** |
| **Azərbaycan Texniki Universitetindən** | **30 bakalavr** | **Azərbaycan Universitetindən** | **10 bakalavr** |
| **Bakı Dövlət Universitetindən** | **22 bakalavr** | **BDU SABAH qruplarından** | **59 bakalavr** |
| **Bakı Mühəndislik Universitetindən** | **36 bakalavr** | **Bakı Ali Neft Məktəbindən** | **26 bakalavr** |

Beləliklə 8 ali təhsil müəssisəsinin bakalavriat və magistratura səviyyəsi üzrə təhsil alan **269 tələbəsi** İnstitutda istehsalat və elmi tədqiqat təcrübəsi keçiblər. Ümumillikdə **245** bakalavr və **24** magistrant ixtisaslarına uyğun olaraq İnstitutun müvafiq laboratoriyalarında təyin olunmuş cədvəl üzrə təcrübə keçiblər











Bundan əlavə, Bakı şəhəri 132-134 nömrəli məktəbin şagirdi Alpər Qərib – 03.03.2025-29.08.2025 tarixlərində, İngiltərənin Britsol Universitetinin "Mexanika mühəndisliyi" proqramının 1 tələbəsi – 01.07.2025-01.09.2025 tarixlərində İnstitutun 22 saylı "İntellektual informasiya-ölçmə sistemləri" laboratoriyasında və İstanbul Medipol Universitetinin "Tibb" proqramının 1 tələbəsi – 15.07.2025-29.08.2025 tarixlərində İnstitutun 18 saylı "İnformasiyanın intellektual emalı sistemləri" laboratoriyasında təcrübə keçiblər.

# İNSTİTUTUN TƏŞKİLATÇILIĞI İLƏ KEÇİRİLƏN KONFRANSLAR, SEMİNARLAR

2025-ci ildə **6 beynəlxalq konfrans, 1 beynəlxalq elmi seminar və 1 respublika elmi-praktiki konfransı** keçirilmişdir.

**1. 13-15 mart 2025-ci** il tarixlərində Bakı Mühəndislik Universitetinin, İdarəetmə Sistemləri İnstitutunun, Türkiyə Ege Universitetinin, Macarıstan Debrecen Universitetinin, Ukrayna V.M.Qluşkov adına Kibernetika İnstitutunun təşkilatçılığı ilə BMU-da **"Mühəndislik problemlərinin həllində meneccment və idarəetmə" (MaCoSEP 2025)** adlı beynəlxalq konfrans. (macosep.cyber.az)



**2. 24-25 aprel 2025-ci** il tarixlərində İdarəetmə Sistemləri İnstitutunun, Xarkov Politexnik İnstitutunun, Xarkov Milli Radioelektronika Universitetinin, Xarkov Aviasiya İnstitutunun və Mista Jilina Universitetinin təşkilatçılığı ilə **"Современные направления развития информационоо-коммуникационных технологий и средств"** adlı XV Beynəlxalq elmi-texniki konfrans.

2025-ci ildə **6 beynəlxalq konfrans, 1 beynəlxalq elmi seminar və 1 respublika elmi-praktiki konfransı** keçirilmişdir.

**3. 13-15 may 2025-ci il** tarixlərində AMEA MEK-də İdarəetmə Sistemləri İnstitutunun, Polşanın Sileziya Texnologiya Universitetinin, Çinin Quançjou Universitetinin, Gürcüstan Texniki Universitetinin, Özbəkistanın Daşkənd Dövlət Nəqliyyat Universitetinin və Azərbaycan Texnologiya Universitetinin təşkilatçılığı ilə hibrid formatda keçirilmiş "**Şərq-Qərb Nəqliyyat Dəhlizində Logistika, İdarəetmə və İstismar Problemləri üzrə (PLMO-2025) 4-cü beynəlxalq konfrans.**

**Konfrans** AMEA-nın müşaviri **t.e.d., prof., akademik Telman Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur.** Tədbirdə Polşa, İtaliya, Gürcüstan, Almaniya, Ukrayna, Ruminiya, Litva, Bolqariya, Özbəkistan, Qazaxıstan və digər ölkələrin aparıcı alimləri iştirak etmişdir. (plmo.cyber.az)











2025-ci ildə **6 beynəlxalq konfrans, 1 beynəlxalq elmi seminar və 1 respublika elmi-praktiki konfransı** keçirilmişdir.

**4. 23 may 2025-ci il tarixində** AMEA MEK-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, AMEA-nın və ETN İdarəetmə Sistemləri İnstitutunun birgə təşkilatçılığı ilə **"Yaşıl dünya, süni intellekt və müasir reallıqlar"** mövzusunda elmi-praktiki konfrans.





**5. 29-30 may 2025-ci il tarixlərində** AR Elm və Təhsil Nazirliyi, AMEA, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, AR Energetika Nazirliyi, AR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Naxçıvan Dövlət Universiteti, NEAR EAST Universiteti, İBS PAN, University of Alberta, UTAR, İdarəetmə Sistemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Müdafiə Sənayesi Nazirliyi, Farabi Universiteti, Dendrologiya İnstitutunun təşkilatçılığı ilə **"2nd International Conference on Smart Environment and Green Technology (ICSEGT2025)"** ("Ağıllı ətraf mühit və yaşıl texnologiyalar") 2-ci beynəlxalq konfrans.






2025-ci ildə **6 beynəlxalq konfrans, 1 beynəlxalq elmi seminar və 1 respublika elmi-praktiki konfransı** keçirilmişdir.

**6.** 26-28 avqust 2025-ci il tarixlərində İdarəetmə Sistemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Türkiyənin Ege Universiteti, Ukraynanın V.M. Qluşkov adına Kibernetika İnstitutu, Qazaxıstanın İnformasiya və Hesablama Texnologiyaları İnstitutu və Yunanıstanın Thessaly Universitetinin təşkilatçılığı ilə **"Kibernetika və İnformatikanın Problemləri" (PCI 2025)** adlı 6-cı beynəlxalq konfrans. (pci.cyber.az)



**7. 5-6 dekabr 2025-ci il** tarixlərində Azərbaycan Dövlət İqtisad Universiteti, İdarəetmə Sistemləri İnstitutu, TED Universiteti, Bahçeşehir Universiteti və Atatürk Universitetinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş **"İnsan-Kompüter Qarşılıqlı Əlaqəsi"** 4-cü Avrasiya konfransı.






2025-ci ildə **6 beynəlxalq konfrans, 1 beynəlxalq elmi seminar və 1 respublika elmi-praktiki konfransı** keçirilmişdir.

8. Qeyd etmək lazımdır ki, **2022-ci ilin yanvar ayından başlayaraq** (ayda bir dəfə, ayın sonuncu çərşənbə axşamı günü) ZOOM platforması üzərindən **“Nəqliyyat və Logistikada Modelləşdirmə və Optimallaşdırma” Beynəlxalq Seminarı** (online) **keçirilir.**

Seminarın təşkilatçıları Azərbaycan, Ukrayna və Moldova alimləridir.
***Seminarın həmsədrləri:***

- Professor **K.Ayda-zadə** (İdarəetmə Sistemləri İnstitutu),
- Professor **P.Stetsyuk** (Kiyev, Kibernetika İnstitutu),
- Professor **D.Lozovanu** (Kişinyov, Riyaziyyat və Kompüter Elmləri İnstitutu).

Seminarda Azərbaycan, İtaliya, Türkiyə, ABŞ, Polşa, Monteneqro, Qazaxıstan və digər ölkələrdən alimlər iştirak edirlər.

# 2025-ci il üzrə isi.az saytının statistikası

- İnstitutun www.isi.az saytında mütəmadi olaraq informasiyalar operativ şəkildə üç (azərbaycan, ingilis və rus) dildə yerləşdirilir. Sayt 2010-cu ildən aktiv fəaliyyət göstərir.
- 2025-ci ildə sayta ümumilikdə **2767 xəbər və 63 elan** yerləşdirilmiş, o cümlədən alimlərin səhifələri yenilənmişdir.
- 2025-ci ildə (01.01.2025-24.12.2025) sayta **52752** dəfə müraciət olunaraq **162342** dəfə səhifə görüntülənmişdir.






# 2025-ci il üzrə isi.az saytının statistikası

Sayta **20889** dəfə birbaşa olaraq, **26506** dəfə GOOGLE axtarış sistemindən, **3354** dəfə sosial şəbəkələrdən (facebook), **2003** dəfə referal saytlardan keçid olmuşdur.






# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜRLƏR!